

Oktay ABDULLA

## YOXDUR

*(Şair Ələsgər Əlioğluna)*

Polad qürurludur sınar, əyilməz,
Könlümə yar olan sözündən yoxdur.
Çox zaman izləmiş qəm-qəhər məni...
Namərdi yanıldan izindən yoxdur!

Çəkdiyin zəhmətin gedərmi hədər,
Şərbət tək içmişəm istəyim qədər,
Sən ey taleyimə doğulan səhər -
Nur yağan üzündən, gözündən yoxdur.

Tale oyuncaqmış zalım əlində,
Duymadım çox şeyi, bilmədim mən də...
Bələdçim olmusan dumanda, çəndə,
Qəlbimi isidən közündən yoxdur!

Bu böyük dünyanı qəfəsim bildim,
Mən sənin səsini öz səsim bildim,
Mən səni harayım, nəfəsim bildim,
Çəmənli laləzar düzündən yoxdur!

Bu sinəm şumlanır min ildən bəri...
Parlar ulduz-ulduz alnımın təri.
Deyirəm, hər kəsin olsun xəbəri,
Bu yurdun, torpağın özündən yoxdur!

## GEDƏK

Cənnət sənsən, bir sehirdir camalın,
Çıxart məndən bu ruhumu al, gedək.
Sən qızısan hansı elin, mahalın,
Söylə, danış, əylən bir az qal, gedək.

Heyrətdəyəm, Yerin, Göyün mehrisən,
İstəyi sən, qəzəli sən, şeiri sən.
Tut əlimdən, mənə sarı yeri sən,
Dodaq qaymaq, dilin şəkər bal, gedək.

Hər kəlməni dərin söylə, üz demə,
Alovum var, atəşim var buz demə.
Hər sözümə söz tuşlayıb söz demə,
Aman bağrım şan-şan oldu xal, gedək.

Atan dağdır, anan dağdır bu qədər,
Ellərindən düşmə ayrı, dərbədər.
O zümzümən sinəm üstə dərd, kədər,
Bu laylanı anam kimi çal, gedək.

Tuş gəldiyim ala gözlü bir səhər.
Göz dağıymış, mən gördüyüm bu əsər,
Gah güldürər, gah ağladar sərasər,
Dərd öldürər, qalmaz məndə hal, gedək.

İnsaf elə, gəl danışaq üz-üzə,
İstəyini bir bildirsin göz-gözə.
Alovumdan qoy qarışsın köz-közə,
Nə mən dinim, nə sən danış, lal gedək.

Aman Tanrım, yollarımız uzaqdır,
Axşam düşür, hava soyuq, sazaqdır.
Bu içdiyin mən içdiyim bulaqdır,
Bulaqların yaddaşında qal, gedək.

Buxağında mən gördüyüm təzə-tər,
Söz mülkümdən anla mətləb, inci dər.
Hamar deyil, yollar səni incidər,
Yollarını bu sinəmdən sal, gedək.

## DÜNYA

Bizi caynağında qara quş kimi,
Aparıb gedirsən hayana, dünya.
Əsdikcə küləyin alnımı tutur,
Çəksəm də başımı ha yana dünya.

Kəsilir qurbanlar, nə var bir xəbər,
Hey acı küləklər əsir sərasər.
Bir günüm min ilə olub bərabər,
Göz yetir rənginə, boyana, dünya.

Vətənin dərdi var, Vətən dardadır,
Qəsbkar erməni vurha-vurdadır.
İstəyim barışmaq, cəllad qıydadır,
Nə deyim abrına, həyana dünya.

Oktayam, bu təbim ilhama gəldi,
Bu yeni gələcək, yeni təməldi.
Ot bitər köküstə, əl həmən əldi,
Çevirmə üzünü gəl yana, dünya!